**Dövlət Statistika Komitəsində 9-cu regional JODİ təlim seminarı keçirilir.**

Bu gün Dövlət Statistika Komitəsinin inzibati binasında 9-cu regional JODİ təlim seminarı keçirilir. Tədbirdə 11 xarici ölkələrin statistika təşkilatlarından və 6 beynəlxalq təşkilatdan ümumilikdə 40-a yaxın mütəxəssis iştirak edir.




Tədbiri giriş sözü ilə açan Dövlət Statistika Komitəsi sədrinin müavini Yusif Yusifov iştirakçıları salamlamış, cari seminarın əvvəlki dövrlərdə aparılmış tədbirlərlə əlaqəsi, məqsədi, seminarın gündəliyi haqqında geniş məlumat vermişdir. O bildirmişdir ki, JODİ konkret olaraq enerjinin istehsalı və istehlakı üzrə proseslərin nəticələrini xarakterizə edir və bu təşəbbüs 100-ə yaxın ölkələrdən neftin təchizatı və tələbatına dair göstəricilər üzrə məlumatları toplamaqdan ibarətdir. Eyni zamanda qeyd edilmişdir ki, Enerji məlumatlarının keyfiyyətinin artırılması məqsədilə Beynəlxalq Enerji Forumu katibliyi və JODİ tərəfdaş təşkilatları (Asiya və Sakit okean ölkələri üzrə İqtisadi Əməkdaşlıq, Avrostat, Beynəlxalq Enerji Agentliyi, Latın Amerikası Enerji Təşkilatı, OPEC, BMT-nin Statistika Şöbəsi) müntəzəm olaraq neft və qaz məlumatlarını toplayan mütəxəssislər üçün regional təlim seminarları keçirir. İndiyədək JODİ tərəfdaşları 8 regional təlim seminarı keçirmişdir.




Sonra söz Enerji məlumatlarının şəffaflığı üzrə əlaqələndirici cənab Fuad Al-Zayerə verilmişdir. Cənab Fuad Al-Zayer enerji məhsulları bazarında şəffaflığın gücləndirilməsinin əhəmiyyəti barədə geniş təqdimatla çıxış etmişdir.

Daha sonra gündəlikdə duran məsələlər üzrə mütəxəssislər tərəfindən təqdimatlar edilmişdir.

Seminar JODİ üzrə ümumi məlumat, mövqe və məqsədlər, genişləndirilmiş JODİ sorğu vərəqi, məlumat istifadəçilərinin perspektivləri, məlumatların toplanılması, keyfiyyəti, qiymətləndirilməsi texnikası mövzularını əhatə edəcəkdir.

Seminar fevralın 27-dək davam edəcək.


Azərbaycanın müstəqilliyi -
Azərbaycan xalqının
sərvətidir !
H. Əliyev